


# COP29 inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaradacaq

Yaşıl dünya naminə həmrəy olaq!

**Qloballaşan dünyada təbiətlə insan arasında münasibət tamamilə pozulmuş, yeraltı-yerüstü sərvətlərin istismarı təbii ehtiyatların gözlənildiyi vaxtdan daha tez tükənməsinə gətirib çıxarmışdır. Ümumiyyətlə, insanın təbiətdən istədiyini almaq üçün göstərdiyi fəaliyyət zamanı ətraf mühitə vurduğu ziyan - torpağa, suya, canlı aləmə müdaxilələr böyük fəsadlarla nəticələnmiş, ona qarşı yönələn bu güclü hücumdan sonra təbiətin özünü bərpa edə bilməməsi isə iqlim dəyişmələrinə səbəb olmuşdur. Bu baxımdan, təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadə bu gün müasir dövrümüzün ən vacib çağırışı olmaqla milli, eyni zamanda beynəlxalq səciyyə daşıyan problemdir. Artıq təbiət onu mühafizə etmək, flora və faunanı mənfi təsirlərdən qorumaq üçün həyəcan təbili çalır və onu bütün dünya eşidir.**

Beynəlxalq aləmdə ən mötəbər tədbirlərdən biri olan COP29-un ölkəmizdə keçirilməsi mühüm hadisədir. Belə ki, Azərbaycanda 2030-cu ilə qədər elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasının, 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasının hədəf kimi qarşıya qoyulması dövlətimizin iqlim dəyişmələrinin fəsadlarına qarşı kəskin mübarizə apardığını və hər zaman qlobal təşəbbüslərə ilk qoşulan ölkələr sırasında olduğunu göstərir.

Ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, yaşıllıq sahələrinin artırılması, su ehtiyatlarından və alternativ enerji mənbələrindən səmərəli istifadə dövlətimizin siyasətində hər zaman prioritet təşkil edib və bu istiqamətdə böyük işlər görülür. Neftlə çirklənmiş torpaqların təmizlənməsi, dünya standartlarına uyğun yeni sənaye müəssisələrinin yaradılması prosesin ardıcıl olaraq həyata keçirildiyini sübut edir və öz müsbət nəticəsini verir. Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) bu il üçün məhz ölkəmizin ev sahibi seçilməsi heç də təsadüfi deyil.

Bu gün Azərbaycanın həyata keçirdiyi uğurlu siyasət bütün dünyanın diqqət mərkəzindədir. Sülhsevər dövlətlərlə əməkdaşlığı, mövcud əlaqələri dərinləşdirməyi, eyni zamanda yeni dostluq münasibətləri qurmağı xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən etməsi ölkəmizin nüfuzunu günbəgün artırır. Qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsində lider olan Azərbaycan transmilli layihələrin reallaşdırılmasında regional güc olaraq çıxış edir, beynəlxalq təşkilatlarla təmasları möhkəmləndirir. Təsadüfi deyil ki, ərazi bütövlüyünü, suverenliyini təmin etməklə qüdrətli dövlət imici formalaşdıran ölkəmizlə bu gün ikitərəfli və çoxtərəfli əlaqələr qurmaq istəyən çox sayda ölkələr var. Beynəlxalq təşkilatlarda, nüfuzlu qurumlarda adı hörmətlə çəkilən Azərbaycanın çox böyük əhəmiyyət kəsb edən tədbirlərə ev sahibi seçilməsi ölkəmizin beynəlxalq aləmdə sabitlik adası kimi tanınmasının göstəricisidir. Azərbaycanın iqlim dəyişmələrinin yaratdığı fəsadlarla mübarizə səyləri təkcə regionda deyil, qlobal miqyasda da dəstəklənir və bu mənada, dünyanın 200-dən çox ölkəsinin yekdil qərarı ilə noyabr ayında ölkəmizdə keçiriləcək konfransdan dünyanın böyük gözləntiləri var. BMT-dən sonra ən böyük təsisat olan Qoşulmama Hərəkatına 4 il uğurla ev sahibliyi edən, Avropa Oyunlarını, Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirən respublikamızın COP29-a da uğurla ev sahibliyi edəcəyi istisna olunmur. Məlumdur ki, bir neçə il əvvəl inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizə aparmağa dəstək üçün dünya ölkələri hər il 100 milyard dollar ayrılacağı barədə razılığa gəliblər və bunun Paris sazişi çərçivəsində 2020-2025-ci illər üçün etibarlı olacağı təsdiqlənib. Hər zaman olduğu kimi, Azərbaycan bu səyləri də dəstəkləyir və iqlim dəyişmələrinin mənfi təsiri nəticəsində böyük təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək göstərmək prioritetləri sırasındadır. İyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə çıxışı zamanı Prezident İlham Əliyev deyib: "Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a ev sahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq".

Azərbaycan yaşıl keçid, o cümlədən COP29 çərçivəsində kiçik ada ölkələri üçün mühüm məsələlərin həllinə ciddi səy göstərir. Belə ki, ölkə başçımız çıxışlarında Azərbaycanın COP29-a sədrliyi zamanı inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin yaratdığı problemlərin həllinin vacibliyini vurğulayır. Bakıda keçiriləcək COP zamanı inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə toplantısında iştirakının nəzərdə tutulduğunu diqqətə çatdıran Prezident İlham Əliyev iyulun 13-də ATƏT-in baş katibi Helqa Mariya Şmidi qəbul edərkən deyib ki, biz "Commonwealth" təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparırıq. Tuvalunun general-qubernatoru Falani Tofinqanı, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolaunu və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul edərkən də COP29-un kiçik ada ölkələri üçün mühüm məsələlərin həllində dönüş nöqtəsi olacağını əminliklə vurğulayıb.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

***COP** - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*